Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ümid Partiyasısının səlahiyyətli nümayəndələri Məmmədli Nəsimi Əhməd oğlu, Ağazadə Ənvər Sərdar oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 226 saylı müraciəti üzrə

**R Ə Y İ**

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ümid Partiyasısının səlahiyyətli nümayəndələri Məmmədli Nəsimi Əhməd oğlu, Ağazadə Ənvər Sərdar oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ümid Partiyasının səlahiyyətli nümayəndələri Məmmədli Nəsimi Əhməd oğlu, Ağazadə Ənvər Sərdar oğlu və digərləri 2009-cu il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, bir sıra seçki dairələrinin seçki məntəqələrində səsvermə günü ehtimal olunana seçki qanunvericiliyinin pozulması hallarının və 29, 57, 61, 63, 64, 81, 114 saylı seçki dairələrinin əhatə etdiyi məntəqə seçki komissiyalarında səsvermə başa çatdıqdan sonra səslərin hesablanmasının məntəqədə deyil, seçki qutularının dairədə açılıb səslərin sayılmasını iddia etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Müraciətlə əlaqədar Mərkəzi Seçki Komissiyasının digər müvafiq qərarı ilə məntəqə seçki komissiyalarında ehtimal olunan pozuntuların araşdırılması səlahiyyəti dairə seçki komissiyalarına aid olduğundan həmin hissədə araşdırmaların aparılması və nəticəsi barədə məlumat təqdim edilməsi aidiyyəti üzrə dairə seçki komissiyalarına həvalə edilmişdir.

Dairə seçki komissiyalarında aparılmış araşdırmalarla əlaqədar 18 saylı Nərimanov-Nizami, 19 saylı Nərimanov birinci, 24 saylı Nizami birinci, 25 saylı

Nizami ikinci, 29 saylı Səbail, 30 saylı Suraxanı birinci, 31 saylı Suraxanı ikinci, 32 saylı Suraxanı üçüncü, 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 37 saylı Nizami birinci (Gəncə), 37 saylı Nizami birinci (Gəncə), 38 saylı Nizami ikinci (Gəncə), 39 saylı Kəpəz birinci (Gəncə), 40 saylı Kəpəz ikinci (Gəncə), 41 saylı Sumqayıt birinci, 46 saylı Şirvan, 47 saylı Mingəçevir, 49 saylı Yevlax-Mingəçevir, 57 saylı Kürdəmir, 65 saylı Neftçala, 114 saylı Şəki kənd və digər seçki dairələrindən daxil olmuş məlumatlara əsasən müəyyən edilir ki, müraciətdə göstərilənlər səsvermə günü seçki məntəqələrində iştirak etmiş komissiya üzvlərinin, müşahidəçilərin, bələdiyyə üzvlüyünə namizəd olmuş və səsvermənin nəticələrinə görə seçilməmiş şəxslərin, məntəqə ərazisində nüfuzlu seçicilərin izahatları ilə təkzib olunur və öz təsdiqini tapmır.

Müəyyən edilmiş maraqlı hallardan biri müraciətdə göstərilən seçki məntəqələrinin böyük əksəriyyətində Ümid Partiyasının müşahidəçilərinin, namizədlərinin və nümayəndələrinin olmamasıdır.

Müraciətdə göstərilən və Mərkəzi Seçki Komissiyası tərəfindən araşdırılması aparılan hallara dair dairə seçki komissiyalarının əhatə etdiyi məntəqələrdə iştirak etmiş müşahidəçilərdən, seçicilərdən və digər maraqlı şəxslərdən alınmış izahatlarla müraciətdə qeyd edilən seçki qanunvericiliyinin pozulması halları öz təsdiqini tapmamışdır.

Belə ki, 29 saylı Səbail seçki dairəsinin 30 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının katibi, Umid Partiyasının təmsilçisi Mütəllimov İftixar Teyyub oğlu 04.01.2010-cu il tarixdə imzaladığı aktla məntəqədə seçki qutusuna topa halında bülleten atılması faktının olmamasını təsdiq etmişdir. Həmin dairənin 1 saylı seçki məntəqəsində öz təşəbbüsü ilə müşahidəçi olmuş Mirzəyev Murad, Vətəndaş Birliyi Partiyasından Əliyev Rəşad, “AVP”-dən Fərzəliyev Məzahir və digərləri səsvermənin şəffaf və demokratik keçirildiyini göstərmişlər.

57 saylı Kürdəmir seçki dairəsinin məntəqə seçki komissiyalarında Ümid Partiyasını təmsil edən komissiya katibləri və üzvləri Ağammədov Şakir Zakir oğlu, Əhmədov Əlmərdan Hacıbala oğlu, Muxtarov Cavid Hətəmxan oğlu, M.Bünyatov, Baxışova Yaqut Mövlam qızı, Məmmədov Əhmədağa Aşayar oğlu, Heydarova Mohriban Kamil qızı, Şirəliyev Yadigar Rza oğlu, Ağammədov Eyni Şakir oğlu öz izahatlarında seçki məntəqəsində səsvermə günü Seçki Məcəlləsinin tələblərinə riayət olunmasını, səsvermə başa çatdıqdan sonra seçki qutularının məntəqədə açılaraq bülletenlərin sayılmasını və yekun protokolunun tələb olunan sənədlərlə birlikdə məntəqə seçki komissiyasının sədri və katiblərinin iştirakı ilə dairə seçki komisssiyasına təhvil verilməsini göstərmişlər.

61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiayasının katibi, Umid Partiyasının təmsilçisi Anar Hacıbaba oğlu Məmmədov məsələ ilə bağlı öz izahatında göstərir ki, 23 dekabr 2009-cu ildə keçirilən bələdiyyə seçkiləri zamanı seçki dairəsinin heç bir məntəqəsindən seçki quruları dairəyə

gətirilməmiş, qutular məntəqələrdə hesablanaraq səslər hesablanmış, dairəyə yalnız yekun protokolu təqdim edilmişdir. Seçki dairəsinin məntəqələrində Ümid Partiyasını təmsil edən, 1 saylı seçki məntəqəsinin katibi M.Talıbova, 8 saylı seçki məntəqəsində komissiya üzvü Quliyeva Şölə Akif qızı, 26 saylı məntəqədə seçki komissiyasının katibi Nağıyev İlqar Ağamirzə oğlu, 5 saylı seçki məntəqəsində VHP-ni təmsil edən məntəqə seçki komissiyasının katibi Əliyev Abhüseyn Ağahüseyn oğlu izahat verərək göstərmişlər ki, seçki məntəqəsində səsvermə Seçki Məcəlləsinə uyğun olaraq aparılmış, səsvermə başa çatdöqdan sonra seçki qutuları məntəqədə açılmış, bülletenlər hesablanmış və yekun protokolu tələb olunan sənədlərlə birlikdə məntəqə seçki komissiyasının sədri və katiblərinin iştirakı ilə dairə seçki komisssiyasına təhvil verilmişdir.

63 saylı Sabirabad birinci və 64 saylı Sabirabad ikinci seçki dairələrinin məntəqə seçki seçki komissiyalarında Milli Məclisdə azlıqda olan siyasi partiyaları təmsil edən komissiya üzvlərindən, müşahidəçilərdən və seçilməmiş namizədlərdən alınmış 50-yə qədər izahatla müraciətdə həmin dairələr üzrə göstərilənlərin əsassçılığı öz təsdiqinin tapmışdır.

Eyni zamanda 81 saylı Beyləqan və 114 saylı Şəki kənd birinci seçki dairəsinin dairə seçki komissiyalarının əhatə etdikləri məntəqələr üzrə maraqlı subyektlərdən alınmış çoxsaylı izahat və aktlarla müraciətdə göstərilənlər təkzib olunmuşdur.

Araşdirma nəticəsində əldə edilmiş çoxsaylı sübutlar Umid Partiyasının səlahiyyətli nümayəndələrinin müraciətində göstərilənlərin real həqiqətə uyğun olmadığını, konkret faktlara söykənməyərək əsassız olduğunu təsdiq etməklə müraciətin təmin edilməməsi üçün əsaslar yaratmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. 2009-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ümid Partiyasının səlahiyyətli nümayəndələri Məmmədli Nəsimi Əhməd oğlu, Ağazadə Ənvər Sərdar oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 226 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy 24 saat müddətində dərc edilsin (Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti səlahiyyətli nümayəndələrə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov